# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 394** **Bakı şəhəri, 17 sentyabr 2018-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 iyul tarixli 343 nömrəli qərarı ilə təsdiq edilmiş "Milli sertifikatlaşdırma sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi haqqında***

"Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 yanvar tarixli 1205 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 iyul tarixli 343 nömrəli qərarı ilə təsdiq edilmiş "Milli sertifikatlaşdırma sistemi haqqında Əsasnamə"nin 2.4.2-ci yarımbəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Milli akkreditasiya qurumu qeydiyyata alınmış uyğunluq sertifikatları ilə bağlı informasiya ehtiyatının "Lisenziyalar və icazələr" portalına inteqrasiyasını təmin edir.".

*Novruz MƏMMƏDOV*
*Azərbaycan Respublikasının Baş naziri*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı